# Fəridə LƏMAN - 70



Hörmətli Fəridə xanım!

Sizi - tanınmış şairi yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1953-cü il noyabr ayının 26-da Qazax rayonunun Köçvəlli kəndində anadan olmuş, orta təhsilinizi Kəmərli kənd orta məktəbində almısınız.

1970-1974-cü illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində ali təhsil alaraq, Cəlilabad rayonunda müəllim kimi əmək fəaliyyətinə başlamısınız. Təyinat müddətiniz başa çatdıqdan sonra Bakı şəhərinə dönərək müxtəlif mətbu orqanlarda işləməklə yanaşı, elmi işlə də məşğul olmusunuz. "Gənclik", "Azərbaycan qadını" jurnallarında, "Azərbaycan", "Respublika", "Azad Azərbaycan", "Dəli Kür" qəzetlərində müxbir, müxbirlər şöbəsinin müdiri və baş redaktor vəzifələrində çalışmısınız. 1996-cı ildə "Müasir Azərbaycan bədii əsərlərinin dilində epitetlər" mövzusunda dissertasiya müdafiə edərək, filologiya üzrə fəlsəfə doktoru adını almısınız. Elmi işə əlavə olaraq "Azərbaycan dilinin epitetlər lüğəti" kitabını hazırlamısınız. 60-a yaxın kitabın müəllifisiniz.

Siz Türkiyədə bir çox simpozium və konfranslarda o cümlədən, 1999-cu ildə ilk Türk dünyası qadınlar qurultayında, eyni zamanda müstəqil ölkəmizin qadınlar qurultayında iştirak etmisiniz. İctimai televiziyanın himninin müəllifisiniz. 2006-2013-cü illərdə AMEA Nəsimi adına Dilçilik İnstitutunun Müasir Azərbaycan dili şöbəsində baş elmi işçi işləmiş, Lüğət şöbəsi ilə birgə "Səməd Vurğunun bədii dilinin izahlı lüğəti" kitabını hazırlamış və "Səməd Vurğun mükafatı" diplomuna layiq görülmüsünüz. 1997-ci ildə "Sevil" Qadınlar Məclisi Poeziya klubunun rəhbəri olmusunuz. 2001-ci ildə "Məhsəti" Şairlər Məclisini yaratmış, 2003-cü ildə "Məhsəti" jurnalını təsis etmiş və onun baş redaktorusunuz. 2012-ci ildə "Mübarizli Vətən" əsəriniz Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında və Gədəbəy, Ağstafa, Qazax bölgələrində oynanılmışdır. Azərbaycan incəsənətinin korifeyləri - Gülxar Həsənova, Əminə Dilbazi, Baba Mahmudoğlu, Nərminə Məmmədova, Töhfə Əliyeva, Aliyə Ramazanova haqqında yazdığınız kitablar mədəniyyətimizə töhfədir.

Aprel şəhidlərimiz - Mühüd Orucov haqqında "Mühüdüm-Şəhidim", Elvin Namazov haqqında "Donmuş təbəssüm", Orxan Əliyev haqqında "Cənnətdən məktublar" kitablarınız çap olunub.

Sizin "Tale adlı yazı varmış" şeirlər kitabınız Ali Kafkasyalı tərəfindən Ərzurumda, Milli Qəhrəman Mübariz İbrahimova həsr olunmuş "Mübarizim bir dünya" kitabınız Türkiyədə prof.Tamella Abbasxanlının maddi dəstəyilə "AEA BA BULBUL" ("Oxu bülbül") kitabınız Özbəkistanda tərcüməçi Dilbar banu Heydərova tərəfindən nəşr edilmişdir. Ulu Öndərə həsr olunmuş "Onu zaman seçib" poemanız ingilis dilinə tərcümə olunaraq Kanadanın Toronto şəhərində təqdim edilmişdir.

Hörmətli Fəridə xanım!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 25 noyabr.- № 45.- S. 27.